# Azərbaycan Milli Kitabxanası ilə Tacikistan Milli Kitabxanası arasında Anlaşma Memorandumu

Azərbaycan Milli Kitabxanası ilə Tacikistan Milli Kitabxanası, sonradan Tərəflər adlandırılacaq, qarşılıqlı əməkdaşlığın formalaşması və inkişafı üçün kitabxanalar arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinin vacibliyini nəzərə alaraq, mədəni əlaqələrin tərəflər arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafı və möhkəmlənməsinə xidmət etdiyindən əmin olaraq aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər milli qanunvericiliyə uyğun olaraq kitabxanaşünaslıq sahəsində Tərəflərin səlahiyyətli orqanları arasında əməkdaşlıq və qarşılıqlı mübadiləni təşviq edir.

**Maddə 2**

Tərəflər ikitərəfli razılaşmalar əsasında iştirakçı dövlətlərin mədəni həyatı haqqında məlumat mübadiləsi aparacaq, o cümlədən beynəlxalq tədbirlərdə hər iki tərəfin nümayəndələrinin iştirakını təmin edəcəklər.

**Maddə 3**

Tərəflər qarşılıqlı maraq doğuran sahələrdə nəşr və mütəxəssis mübadiləsini həyata keçirəcəklər.

**Maddə 4**

Tərəflər mədəni irs sahəsində kitabların qorunma və mühafizəsi, tədqiqi və bərpası üzrə əməkdaşlığı inkişaf etdirəcəklər.

**Maddə 5**

Tərəflər iştirakçı dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq çap və elektron materiallar sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

**Maddə 6**

Tərəflər mədəniyyət və incəsənət sahəsində kitab, dövri mətbuat və digər nəşrlərin mübadiləsini inkişaf etdirəcək, Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq keçiriləcək beynəlxalq kitab sərgilərində qarşılıqlı iştirakı təmin edəcəklər.

**Maddə 7**

Tərəflər kitabxana işinin müxtəlif sahələrində kadrların hazırlanması və təcrübə mübadiləsini inkişaf etdirəcəklər.

**Maddə 8**

Yerləşdirmə xərcləri (mehmanxana və gündəlik xərclər) qəbul edən ölkə tərəfindən, səfər (yol) xərcləri isə göndərən ölkə tərəfindən ödəniləcək.

**Maddə 9**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memorandumun ayrılmaz tərkib hissəsi kimi Memoranduma ayrı-ayrı protokollarla rəsmiləşdirilərək düzəlişlər və əlavələr edilə bilər.

Bu Memorandumun maddələrinə dəyişikliklər edilməsi və ya onların ləğv edilməsi həmin maddələrin qüvvədə olduğu müddətdə müqavilə (kontrakt) ilə təsdiqlənmiş layihələrin tamamlanmasına kimi həyata keçirilməsinə təsir etməyəcək.

**Maddə 10**

Hazırki Memorandum beynəlxalq müqavilə deyil. Bu qarşılıqlı anlaşma haqqında Memorandumun əsasnaməsi beynəlxalq hüquqların tənzimlənməsində məsuliyyət daşımır.

**Maddə 11**

Bu Memorandum Düşənbə şəhərində "28" noyabr 2017-ci il tarixində iki nüsxədə Azərbaycan, tacik və rus dillərində tərtib edilmişdir, bütün mətnlər eyni hüquqa malikdir. Memorandumla bağlı fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan varianta üstünlük veriləcəkdir.

Memorandum imzalandığı gündən qüvvəyə minir, Tərəflərdən biri Memorandumu ləvğ emək barədə digər tərəfə yazılı müraciət edənə kimi müddətsiz bağlanır. Tərəflərdən biri Memorandumun bitməsi haqqında digər tərəfə yazılı bildiriş göndərdikdən 6 ay sonra Memorandum qüvvədən düşür.

Bu Memorandumun təfsiri və ya tətbiqi ilə bağlı mübahisə yaranarsa Tərəflər onu danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

| | |
|---|---|
| Azərbaycan Milli Kitabxanasının direktoru | Tacikistan Milli Kitabxanasının direktoru |
| prof. Kərim Tahirov | prof. Abdusalom Miralizoda |